*Valeh Bahaduroğlu*

***Qırmızı-qırmızı***

**Xocalı faciəsinin ildönümünə...**

Süngü işartısında
Sular iməkləyirdi
        Qırmızı-qırmızı.
Ömründə ilk dəfəydi
Daşlar çiçəkləyirdi
        Qırmızı-qırmızı.
Üşüyürdü ayaqlar
Ağacda yarpaq kimi –
        qırmızı-qırmızı.
Anaların əlində
Körpəsi bayraq kimi –
        Qırmızı-qırmızı.
Soyumamış cəsədin
Üstünə qar yağırdı –
        qırmızı-qırmızı.
Göyə çıxan naləyə
dünya durub baxırdı –
        qırmızı-qırmızı.

***Bahaduroğlu V. Qırmızı-qırmızı : şeir // Ədəbiyyat qəzeti. – 2016. – 27 fevral. – S. 5.***